# "Qaz İxrac" İdarəsində əməyin mühafizəsi sahəsində görülmüş işlər müzakirə olunub





**SOCAR - ın "Qaz İxrac" İdarəsində (QİI) 2019-cu il ərzində əməyin mühafizəsi sahəsində görülmüş işlər müzakirə edilmişdir. Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşov çıxış edərək müvafiq işlərin "Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi"nin tələblərinə uyğun şəkildə həyata keçirildiyini bildirmişdir.**

Qeyd olunmuşdur ki, idarənin obyektlərində daimi fəaliyyət göstərən komissiyanın, müvafiq şöbə və nəzarətedici orqanların (FHN-in SİTGDMN Dövlət Agentliyi, AR FHN DYNX) nümayəndələri tərəfindən istehsalat sahələrində yoxlamalar aparılmış, aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür. İl ərzində işçilərin əməyin mühafizəsi və təhlükəsizlik texnikasına dair bilikləri yoxlanılmış, nomenklatur tədbirlər planı yerinə yetirilmişdir. Bununla yanaşı, Magistral Qaz Kəmərləri sahələrində (MQKS) əmək şəraitinin vəziyyətinin kompleks yoxlanılması ərəfəsində işçilər maarifləndirilmiş, 28 aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar "Əməyin mühafizəsi və əmək sferasının gələcəyi" mövzusunda bütün struktur bölmələrində tədbirlər keçirilmişdir.

MQKS-lərin istehsalat obyektlərində əmək şəraitinin yaxşılaşdırılması, sanitariya və gigiyena sahələrində də bir sıra işlər görülmüşdür. Belə ki, Magistral Qaz Kəmərləri Sahələrinin balansında olan bəzi QPS-lərdə müasir standartlara cavab verən operator otaqları və sanitar qovşaqları tikilmiş, eləcə də QPS-lər hər cür şəraiti olan vaqon evciklərlə təmin olunmuşdur. Evciklərdə təmir işləri aparılmış, QPS-lərdə yanğın və içməli su hovuzları tikilmişdir. Astara və Hacıqabul MQKS-lərinin inzibati binalarının həyətində işçilərin asudə vaxtlarını səmərəli keçirmələri üçün mini-futbol meydançası tikilərək istifadəyə verilmişdir.

İdarənin illik iş proqramı çərçivəsində ətraf mühitin mühafizəsi istiqamətində tədbirlər həyata keçirilmiş, o cümlədən il ərzində təhlükəli, bərk və selliloz tullantılar aidiyyəti üzrə təhvil verilmişdir.

MQKS-lərdə əmək şəraitinin vəziyyətinin kompleks yoxlanılması ərəfəsində işçilərlə "İstilikdən yaranan stress", "Günvurma zamanı ilkin tibbi yardım" və digər mövzularda maarifləndirmə işləri həyata keçirilmişdir. İl ərzində Ekologiya İdarəsinin GEM-nin işçiləri tərəfindən "Qaz İxrac" İdarəsinin idarə aparatında, MQKS-lərin ərazilərində, inzibati binalarında, KS-lərdə, QPS-lərdə və s. dezinfeksiya, dezinseksiya və deratizasiya işləri aparılmışdır.

İlin yaz-yay mövsümündə iməciliklər keçirilmiş, bu iməciliklər zamanı 5916 ədəd ağac və gül kolları əkilmişdir. Əkilən ağacların suvarılması üçün süni suvarma üsulları tətbiq edilmiş və mütəmadi olaraq aqrotexniki qulluq göstərilmişdir.

"Qaz İxrac" İdarəsində ISO 9001-2015, ISO 14001-2015, ISO 50001-2018 və İSO 45001-2018 Beynəlxalq Standartlarının tələbləri səviyyəsində lazımi işlər görülmüşdür. OHSAS 18001 İdarəetmə sisteminin yeni İSO 45001 Beynəlxalq standartı ilə əvəz edilməsi və eyni zamanda ISO 50001-2018 ci il versiyasının tətbiqi ilə əlaqədar İdarəetmə sistemi üzrə bütün sənədlər gözdən keçirilmiş və İdarənin Siyasəti, Əl kitabı və Prosedurlar yenidən reviziya edilmişdir. Bununla əlaqədar QİI-nin İdarəetmə aparatı, 7 MQKS və MQBTTS üzrə çalışan personal ilə müvafiq proqrama uyğun fərdi qaydada görüşməklə və ya toplantılar şəklində maarifləndirmə işləri aparılmışdır.

İl ərzində İşçilərin peşəkarlıq səviyyəsinin artırılması, onların ikinci peşəyə yiyələnmələri və tətbiq olunan ISO 9001, ISO 14001, ISO 50001 və İSO 45001 Beynəlxalq Standartlarına edilmiş dəyişikliklər üzrə işçilərin öyrədilməsi məqsədilə ümumilikdə 88 nəfər işçi Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsində müxtəlif kurslarda iştirak etmişdir.

2019-cü il ərzində "Qaz İxrac" İdarəsi üzrə bədbəxt hadisə və peşə xəstəlikləri qeydə alınmamışdır.

Hesabat yığıncağında "Qaz İxrac" İdarəsi rəisinin birinci müavini Nazim Səmədzadə və digər çıxış edənlər əməyin mühafizəsi sahəsində görülmüş işləri müsbət qiymətləndirmişlər.

Tədbirdə SOCAR-ın Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsinin rəisi Yaşar Əhmədov çıxış etmiş və tövsiyələrini vermişdir.

**Həzi Həsənli,**
SOCAR-ın "Qaz İxrac" İdarəsinin əməkdaşı

# 2019-cu il islahatlar ili kimi yadda qaldı

## *Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatında ötən ilin yekunları ilə bağlı iclas keçirildi*





YAP Səbail rayon təşkilatı İdarə Heyətinin, Şura üzvlərinin, ərazi ilk partiya təşkilatları sədrlərinin iştirak etdikləri tədbirdə 2019-cu ildə görülmüş işlər, qarşıda duran vəzifələr barədə ətraflı danışıldı. YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev 2019-cu ili islahatlar kimi dəyərləndirərək ölkəmiz üçün əhəmiyyəti ilə seçilən məqamlara nəzər yetirməklə fikrini əsaslandırdı:

-Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə qeyd olunduğu kimi, iqtisadi müstəqillik nəticəsində həyata keçirilən sosial islahatlar əhalinin rifah halını yaxşılaşdırmaqla, mühüm hadisələrlə yadda qaldı. Şaxələndirilmiş infrastruktur layihələrinin sürətləndirilməsinə diqqət artırıldı. 4 milyondan çox insanı əhatə edən sosial paketin tətbiqi ilə ölkə vətəndaşlarının bütün təbəqələrini əhatə edən önəmli islahatlar həyata keçirildi. Ötən il bütün sahələrdə qazanılan uğurlar göstərdi ki, Azərbaycan müstəqil siyasət yürütməklə, dayanıqlı inkişaf yolunda inamla irəliləyir. Beynəlxalq aləmdə mövqeyi möhkəmlənir.

Sivilizasiyalararası əlaqələrin, xalqlararası əməkdaşlığın möhkəmlənməsində zəngin təcrübəyə malik, sabit məkan kimi seçilən, humanitar platforma kimi tanınan Azərbaycanda ötən ildə də dünya ictimaiyyətini düşündürən aktual məsələlər müzakirə olunmuş, hədəfləri əks etdirən çağırışlar səslənmişdir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşləri keçirilmiş, Rusiya-Azərbaycan əməkdaşlığını möhkəmləndirən qarşılıqlı, səmərəli səfərlər təşkil olunmuşdur. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına, 120 üzv ölkənin yekdil qərarı ilə BMT-dən sonra bu ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrliyə başlamışdır. Cənub Qaz Dəhlizinin seqmenti olan TANAP-ın Avropa sərhədlərinə çatdırılması da ötən ilin tarixi hadisələrindəndir.

Qeyd olunmuşdur ki, ölkəmizdə yenilənmə, gəncləşmə prosesi istiqamətində aparılan köklü islahatlar bu gün də davam etdirilməklə, əhali tərəfindən razılıqla qarşılanır. Prezident İlham Əliyevin Sərəncamı ilə 2020-ci ilin "Könüllülər İli" elan olunması dövlətin gənclər siyasətinin parlaq təzahürüdür.

Geniş və əhatəli hazırlanan İş planında ənənəvi ictimai-siyasi, mədəni-kütləvi tədbirlərin, həmçinin "Könüllülər ili" çərçivəsində keçirilməsi nəzərdə tutulan, xüsusilə gənclər, yeniyetmələr üçün tərbiyəvi, maarifləndirici seminarların, "dəyirmi masa"ların təşkili, partiya üzvlərinin cəbhə bölgələrinə səfərləri, əsgərlərlə görüşlərin keçirilməsi, Səbail rayonunda qeydə alınmış 300-ə yaxın aztəminatlı ailəyə, əlillərə, müharibə veteranlarına, şəhidlərin yaxınlarına, kimsəsizlərə, tənha qocalara, fiziki imkanları məhdud insanlara mütəmadi olaraq maddi-mənəvi yardımların göstərilməsi üzrə işlər davam etdiriləcəkdir.

Yola saldığımız ili Yeni Azərbaycan Partiyası üçün də uğurlu il adlandıran Şəmsəddin Hacıyev bildirdi ki, YAP Səbail rayon təşkilatının sıraları genişlənir, partiyanın yeni üzvləri arasında gənclər, qadınlar üstünlük təşkil edir. 2019-cu ildə keçirilən yerli özünüidarəetmə orqanlarına seçkilər barədə məlumat verən, bələdiyyələrdə gənclərin və qadınların layiqincə təmsil olunmasını dövlətimizin gənclər və gender bərabərliyi siyasətini əks etdirdiyini diqqətə çatdıran Şəmsəddin Hacıyev fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar görülən hazırlıq işlərindən də bəhs etdi. Bildirildi ki, YAP Səbail rayon təşkilatında təbliğat-təşviqat kampaniyasının mütəşəkkilliklə keçirilməsi üçün qərargahda yaradılan operativ qrupun üzvləri ilə söhbətlər aparılıb. Ümumxalq hüzn günü olan 20 Yanvar faciəsinin ildönümünə də hazırlıq görülüb.

Sonra Yeni Azərbaycan Partiyasının yaradıcısı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ilə əlaqədar tədbirlər planı, YAP Səbail rayon təşkilatının Qadınlar Şurasının, Gənclər Birliyinin, Nəzarət-təftiş komissiyasının 2020-ci il üçün iş planları təsdiq edildi. YAP Səbail rayon təşkilatının illik hesabat yığıncağının fevral ayında keçirilməsi planlaşdırıldı.

Sonda YAP sıralarına qəbul olunanlara üzvlük vəsiqələri verilib.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***